# Elm və təhsil naziri rektorlarla və elmi-tədqiqat institutlarının direktorları ilə görüşüb





## Gələcək inkişaf perspektivləri, mövcud resurslardan düzgün istifadə, yeni mexanizm və alətlərin yaradılması müzakirə edilib

Dekabrın 20-də Elm və Təhsil Nazirliyində ali təhsil müəssisələrinin rəhbərləri ilə görüş keçirilib.

Görüşdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, ali təhsil müəssisələrinin rəhbərləri və digər qonaqlar iştirak ediblər.

Görüşdə ali təhsil sisteminin gələcək inkişaf perspektivləri, mövcud resurslardan düzgün istifadə, yeni mexanizm və alətlərin yaradılması müzakirə edilib. Eyni zamanda əmək bazarının tələblərinə uyğun peşəkar kadrların hazırlanması, davamlı keyfiyyətli təhsilin təmin edilməsi, universitetlərin elm və tədqiqat sahəsi ilə bağlı inkişaf planları barəsində fikir mübadiləsi aparılıb.

Görüş zamanı İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynov 2014-2020-ci illər ərzində bakalavriat səviyyəsi üzrə məzun olan tələbələrin məşğulluğu, Elm və Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov isə pedaqoji profilli ixtisaslar üzrə ali təhsil müəssisələrindən məzun olmuş tələbələrin 2022-2023-cü tədris ilində keçirilmiş MİQ imtahanlarındakı nəticələrinə dair statistik təhlili iştirakçıların diqqətinə çatdırıb.

Görüşün sonunda müzakirə edilən məsələlərə dair rəy və təkliflər səsləndirilib.

## Elmin idarə olunması sahəsində əsas çağırışlar və nazirliyin bu sahədə görəcəyi işlər müzakirə mövzusu olub

Dekabrın 22-də elm və təhsil naziri Emin Əmrullayev Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi-tədqiqat institutlarının direktorları ilə görüşüb.

Görüşdə elmin idarə olunması sahəsində əsas çağırışlar və Nazirliyin bu sahədə görəcəyi işlər müzakirə mövzusu olub. Görüş çərçivəsində elm və təhsilin inteqrasiyasında beynəlxalq təcrübənin nəzərə alınması, elmin yeni maliyyələşmə mexanizmləri, elmi-tədqiqat institutları ilə birgə ali təhsil müəssisələrinin ikili magistratura proqramlarının hazırlanması ətrafında müzakirələr aparılıb. Eyni zamanda yeni qrant mexanizmlərinin yaradılması, elmi nəşrlərin keyfiyyət meyarları, 2023-cü təqvim ilində elmi-tədqiqat institutlarının qarşısında duran əsas problemlər, onların daha çevik həlli məsələləri ilə bağlı fikir və rəylər səsləndirilib.

Görüş zamanı elmi-tədqiqat institutlarının nəşrləri ilə bağlı təqdimat da nümayiş etdirilib.